# Məktəblilərin Respublika Yaradıcılıq Festivalının Əsasnaməsi

## 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə məktəblilər arasında respublika müsabiqələrinin keçirilməsi qaydalarını müəyyən edir.

1.2. Festivalın təsisçiləri və təşkilatçıları Azərbaycan Respublikası Təhsil, Mədəniyyət, Ekologiya və Təbii Sərvətlər nazirlikləridir.

1.3. Festivalın təşkili və keçirilməsi üçün İşçi qrupu yaradılır (Əlavə 1). İşçi Qrupu festivalın hazırlığı və keçirilməsi ilə bağlı fəaliyyəti koordinasiya edir.

## 2. Məqsəd və vəzifələr

2.1. Məktəblilərin maraq və bacarıqlarının, intellektual səviyyəsi və yaradıcı qabiliyyətlərinin aşkarlanması, onların qlobal dayanıqlı inkişaf məqsədləri və müxtəlif məktəbdənkənar istiqamətlər üzrə aktiv yaradıcılıq fəaliyyətinə cəlb olunması ilə fərdi potensiallarının sistemli inkişafı, ümumtəhsil məktəblərinin müvafiq sahələr üzrə sinifdənxaric və məktəbdənkənar fəaliyyətlərinin qiymətləndirilməsi;

2.2. Azərbaycan xalq yaradıcılığı dəyərlərinə, dünya mədəniyyətinin ən yaxşı nümunələrinə hörmətin və marağın yaradılması zəminində məktəblilərdə mənəvi dəyərlərin formalaşdırılması;

2.3. Məktəblilərin yeni növ texnologiyalaradan istifadə edərək yaradıcı təfəkkür və açıq düşüncə tərzinin formalaşması, müasir cəmiyyətə inteqrativ şəxsiyyətin yetişdirilməsi və gələcəyin ixtisas və peşə seçim imkanlarını təmin edən müvafiq bacarıqların verilməsi;

2.4. Dayanıqlı inkişaf məqsədlərini rəhbər tutaraq, məktəblilərdə ekoloji düşüncə tərzi və ekoloji mədəniyyətin formalaşdırılması, ətraf mühitin mühafizəsi tədbirlərində və ekoloji təcrübəçilik sahəsində fəaliyyətlərinin artırılması;

2.5. Məktəblilərin texniki, bədii və ekoloji yaradıcılıq istiqamətləri üzrə istedadlarının aşkarlanması, müvafiq istiqamətlər üzrə onların peşəkar inkişafına sistemli yanaşmanın təmin olunması.

## 3. Festivaldan gözlənilən nəticələr

3.1 Məktəblilərin fərdi keyfiyyətləri, yaradıcılıq potensialları, mədəni səviyyələri və ünsiyyət bacarıqlarının inkişafı;

3.2 Məktəblilərin sosial-psixi, intellektual, yaradıcı və innovativ inkişafının korreksiyası;

3.3 Məktəblilərdə ekoloji mədəniyyətin, sağlam həyat tərzi şüuru və davranışının formalaşdırılması;

3.4 Məktəblilərin cəmiyyətə zidd davranışlarının qarşısının alınması;

3.5 Məktəblilər üçün münbit emosional mühitin yaradılması, ünsiyyətin inkişafı, məktəblərarası əməkdaşlığın gücləndirilməsi;

3.6 Məktəblilərin peşə seçimi zamanı qərarvermə bacarıqlarının inkişafı.

## 4. Festival təşkilində məsul tərəflər

4.1. Festivalın keçirilməsinə ümumi rəhbərliyi Azərbaycan Respublikası Təhsil, Mədəniyyət, Ekologiya və Təbii Sərvətlər nazirlikləri həyata keçirir;

4.2. Müsabiqələrin icrasına dair təşkilati işlərə rayon (şəhər) təhsil şöbələri (idarələri), Mədəniyyət və Ekologiya və Təbii Sərvətlər nazirliklərinin müvafiq strukturları və regional idarələri cəlb olunacaqdır.

4.3. İncəsənət, ekologiya, texnologiya və digər sahələr üzrə müsabiqənin qiymətləndirmə mərhələsini müvafiq mütəxəssislərdən təşkil olunmuş münsiflər heyəti həyata keçirir.

4.4. Münsiflər heyətinin tərkibi Festivalın İşçi qrupu ilə razılaşdırılmaqla təsdiq edilir.

## 5. Festivalda iştirak

5.1. Festival çərçivəsində keçirilən müsabiqələrdə respublikanın bütün ümumtəhsil müəssisələrinin şagirdləri aşağıda göstərilən istiqamətlər üzrə iştirak edə bilər:

- Dram
- Dekorativ-tətbiqi sənət və təsviri sənət
- Ekologiya

## 6. Festivalın keçirilmə mərhələləri və vaxtı, təşkili, mükafatlandırma qaydaları

6.1. Festivalın keçirilmə mərhələləri və vaxtı, həmçinin qaliblərin mükafatlandırılması təsdiq edilmiş "Əsasnamə" ilə müəyyən edilir .

6.2. Mükafatlandırma zamanı veriləcək sertifkat və hədiyyələr münsiflər heyətlərinin qonorarları təşkilatçılar tərəfindən təmin olunur.

## 7. Tərəflərin öhdəlikləri

7.1. Məktəbdaxili mərhələnin təşkili və keçirilməsində məktəb direktorları, təlim-tərbiyə işləri üzrə direktor müavini, müvafiq istiqamətlər üzrə müəllim kollektivi yaxından iştirak edir.

7.2. Rayondaxili mərhələdə rayon (şəhər) təhsil şöbələri (idarələri), Mədəniyyət və Ekologiya və Təbii Sərvətlər nazirliklərinin aidiyyəti strukturları yaxından iştirak edir.

7.3. Zona mərhələsində müvafiq şərait nəzərə alınmaqla müsabiqələrin təşkili Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən mədəniyyət müəssisələrində və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ərazi ekologiya idarələrində həyata keçirilir. Zonalara ezam olunan münsiflər heyəti və təşkilatçıların ezamiyyə xərclərinin ödənilməsi iş yerlərinin hesabına həyata keçirilir. Bu mərhələ üzrə müsabiqələrin təşkili və keçirilməsində rayon (şəhər) təhsil şöbələrinin (idarələrinin) və ərazi ekologiya idarələrinin, mədəniyyət müəssisələrinin əməkdaşları yaxından iştirak edirlər.

7.4. Final mərhələsində komandalar və onları müşayiət edən rəhbərlərin ezamiyyə xərcləri ezam edən təşkilat tərəfindən, qaliblərin mükafatlandırılması isə təşkilatçılar tərəfindən həyata keçirilir.

7.5. Müsabiqələr üzrə avadanlıq və ləvazimatlarla təminat ümumtəhsil məktəbləri tərəfindən həyata keçirilir.

## 8. Festivalda iştirak üçün qəbul şərtləri

8.1. Müsabiqədə müxtəlif istiqamətlər üzrə iştirak etmək istəyən ümumtəhsil müəssisələri hər istiqamət üçün nəzərdə tutulmuş iştirak qaydaları və sifariş formasına əsasən iştirak edə bilər (Əlavə 2).

8.2. Müsabiqədə bütün ümumtəhsil müəssisələri iştirak edə bilər.

## 9. Komandaların qiymətləndirilməsi

9.1. Respublika müsabiqəsində iştirak edən ümumtəhsil müəssisələri iştirak etdikləri istiqamətlər və əldə olunmuş nailiyyətlər əsasında müvafiq xallarla qiymətləndirilir.

9.2. Qaliblər Festival çərçivəsində keçirilən müsabiqələr zamanı daxili qiymətləndirmə, hər bir istiqamət üzrə təsdiq olunmuş münsiflər heyəti tərəfindən və onların uyğun bildiyi qiymətləndirmə meyarları ilə seçilir.

9.3. Müsabiqələrin rayon, zona və respublika mərhələsiinin münsiflər heyətinin tərkibi Festivalın İşçi qrupu ilə razılaşdırılmaqla formalaşır.

## 10. Festival çərçivəsində keçirilən müsabiqələr

10.1. “Ekoloji yönümlü və enerji effektli məktəblərin yaşıl şəbəkəsi” respublika müsabiqəsi

10.2. Dram və təsviri incəsənət istiqamətləri üzrə respublika müsabiqəsi

## 11. Mükafatlandırma

1.1. Müsabiqələrin qalibləri və müvafiq kollektivlərin rəhbərləri müvafiq nominasiyalar üzrə təşkilatçılar tərəfindən diplom və qiymətli hədiyyələrlə mükafatlandırılacaq.

**Məktəblilərin “Ekoloji yönümlü və enerji effektli məktəb” respublika müsabiqəsinin Əsasnaməsi**

## 1. Ümumi müddəalar

Ətraf mühitin müasir vəziyyəti, ekoloji problemlərin artması, Yer kürəsinin qlobal ekosisteminə antropogen təsirin güclənməsi ilə əlaqədar olaraq insanların təbii ehtiyyatların səmərəsiz istifadəsinə və istehlaka yanaşmasını dəyisdirmək, təbiətin səmərəli istifadəsinə, ekoloji etik qaydaların müasir prinsiplərini mənimsəməyə kömək etmək tələb olunur. Əsas istiqamətlərdən biri təbii ehtiyyatlara qənaətli münasibətin, onların səmərəli istifadəsinin, tullantıların utilizə edilməsi və həyat fəaliyyətinin kompleks şəkildə ekoloji vəziyyətinin öyrədilməsinə müasir təhsil proqramının tətbiq edilməsi yolu ilə yanaşmanın dəyişdirilməsi, təhsil müəsisələrinin idarə edilməsində təsərrüfat üsullarının tətbiq edilməsi.

## 2. Müsabiqənin məqsədi, vəzifələri və görüləcək işlər

2.1. Müsabiqənin məqsədi Bakı şəhərində və Azərbaycanın regionlarında fasiləsiz dayanıqlı ekoloji təhsilin inkişafı, vətəndaşlarda qənaətcil davranış prinsiplərinə xidmət edən bacarıqların aşılanması və digər ekoloji yönümlü və enerji effektli pilot məktəblərinin yaşıl şəbəkəsinin yaradılması;

2.2. “Mənim məktəbim - ətraf mühitə diqqətlidir” ekoloji işarənin məktəbə tətbiq olunması;

2.3. Gələcəkdə uğurla tətbiq olunan və sınaqdan keçən proqram Azərbaycanın bütün təhsil müəssisələrinə tədris oluna bilər.

2.4. Məktəblilər üçün enerjinin efektiv istifadəsi və həyat fəaliyyətinin ekoloji səmərəli təşkilinə dair proqramların hazırlanması;

2.5. Məktəb rəhbərləri daxil olmaqla seçilmiş məktəb müəllimləri üçün maarifləndirici təlimlərin keçirilməsi;

2.6. Proqramı hazırlayan xüsusi ekspert qrupları tərəfindən məktəblərdə nümunəvi açıq dərslərin keçirilməsi;

2.7. “İlin yaşıl məktəbi” mövzusunda ekoloji sertifikatlaşdırılma müsabiqəsinin elan edilməsi;

2.8. Facebook səhifəsinin açılması və bütün seçilmiş məktəblərin fəal şagidlərindən ibarət pilot qruplarının yaradılması;

2.9. Müəllimlər, məktəblilər və valideynlərin iştirakı ilə yaradılmış məktəb ekoloji şurası tərəfindən ekoidarəetmə proqramının hazırlanması və tətbiqi;

2.10. Bütün məktəblərdə vahid tədbir günlərinin və tematik aylıqların elan edilməsi, praktiki tədbirlərin keçirilməsi (uşaq qrupları ilə müzakirələr, "İdeyalar sərgisi");

2.11. Məktəbdə infastrukturun yaradılması - suya qənaət, tullantıların idarə olunması, enerjiyə qənaət, yaşıl yeməkxana və ekoloji istehlak;

2.12. Kommunal xidmətlərin və enerji resuslarının ödənişi üçün büdcə vasitələrinə qənaət proqramının öyrədilməsi;

2.13. Məktəbyanı sahələrin fitodizayn və landşaft dizaynı üzrə proqramının hazırlanması və tətbiq olunması (uşaq müsabiqəsi);

2.14. Sağlam qidalanmanın, yaşıllaşdırmanın, az istifadənin, tullantıların utilizə edilməsi, yağış suyunun yığılması, günəş batareyalarının, iqlim nəzarətinin istifadəsi imkanlarının öyrənilməsi;

2.15. "Yaşıl məktəb" adının verilməsi və sertifikatlaşdırılması.

Təqdim olunan proqram ekoloji yönümlü cəmiyyətin inkişafı naminə enerji ehtiyatlarından səmərəli istifadə, tullantıların təkrar istifadəsinin səmərəli həlli, su təminatı, iqlim dəyişmələrinə təsirin azaldılması bacarıqlarını şagirdlərə aşılayacaq.

## 3. Müsabiqənin keçirilmə qaydaları və mərhələləri

3.1. Proqramın müddəti: Məktəblilərin "Ekoloji yönümlü və enerji effektli məktəb" respublika müsabiqəsi 01 dekabr 2018-ci il tarixindən başlayaraq 15 iyun 2019-cu il tarixinə qədər davam edəcək.

3.2. Müsabiqə aşağıdakı nominasiyalar üzrə aparılır:

- Elektrik enerjisinə qənaət;
- Su sərfiyyatına qənaət;
- Tullantıların yenidən emalı;
- "Yaşıl bufet"
- "Yaşıl guşə"- məktəbyani sahələrin fitodizaynı və landşaft dizaynı.

3.3. Görülən işlərlə bağlı hər mərhələnin fotoşəkilləri çəkilməli, təcrübə işləri müşahidə gündəliyində qeyd edilməlidir. Müsabiqəyə təqdim olunan işlər İşçi qrupunun razılığı ilə yaradılmış Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin, Ekologiya və Təbii Sərvətlər və Mədəniyyət nazirliklərinin mütəxəssislərindən ibarət münsiflər heyəti tərəfindən qiymətləndiriləcəkdir. Qiymətləndirmə hər nominasiya üzrə fərqli bal şkalasına uyğun müəyyənləşəcək.

3.4. Müsabiqə 4 mərhələdə keçirilir:

- I mərhələ: uşaq-gənclər inkişaf mərkəzlərinin və ümumtəhsil müəssisələrinin müsabiqə ilə bağlı məlumatlandırılması;
- II mərhələ: müəllimlər üçün maarifləndirici təlimlərin keçirilməsi;
- III mərhələ: məktəblərin qeydiyatı və sənədlərin qəbulu, məktəblərin seçimi;
- IV mərhələ: Zona mərhələsi
- V mərhələ: Bakı şəhərində respublika mərhələsi və qaliblərin yekun tədbirdə iştirakı.

3.5. Zona mərhələsində müsabiqə iştirakçılarının praktik işləri qiymətləndiriləcəkdir. Seçilmiş ən yaxşı layihələr respublika mərhələsinə göndəriləcək.

-Bakı-Abşeron zonası üzrə Bakı şəhərində (Bakı və Sumqayıt şəhəri, Abşeron və Xızı rayonları, Qubadlı, Zəngilan, Şuşa rayonları);

- Quba-Xaçmaz zonası üzrə Quba şəhərində ( Quba, Qusar, Xaçmaz, Şabran , Siyəzən rayonları);

- Lənkəran-Astara zonası üzrə Lənkəran şəhərində (Lənkəran, Astara, Masallı, Cəlilabad, Yardımlı, Lerik, Cəbrayıl rayonları);

- Dağlıq Şirvan zonası üzrə Şamaxı şəhərində - (Şamaxı, İsmayıllı, Ağsu və Qobustan rayonları)

- Aran zonası üzrə Göyçay şəhərində (Mingəçevir şəhəri, Göyçay, Şirvan, Hacıqabul, Sabirabad, Saatlı, Salyan, Neftçala, İmişli, Füzuli, Ucar, Zərdab, Ağdaş, Kürdəmir, Ağcəbədi, Beyləqan, Yevlax, Bərdə, Ağdam, Tərtər, Laçın və Biləsuvar rayonları)

- Gəncə-Qazax zonasi üzrə Gəncə şəhərində -( Gəncə şəhəri, Tovuz, Qazax, Göygöl, Şəmkir, Naftalan, Samux, Daşkəsən, Gədəbəy, Ağstafa, Kəlbəcər, Xocalı, Xocavənd və Goranboy rayonları);

- Şəki-Zaqatala zonası üzrə Şəki şəhərində - (Şəki, Qax, Balakən, Qəbələ, Zaqatala və Oğuz rayonları).

3.6. Respublika mərhələsində müsabiqə iştirakçıları əldə olunan nəticələrə əsasən Power Point formatında slaydlar hazırlamalıdır. Görülən işlər münsiflər heyətinin üzvləri tərəfindən qiymətləndiriləcək.

3.7. Hər bir qrup üçün tədris planı tərtib olunacaq: müəllimlər üçün metodiki məsləhətlər, şagirdlər üçün iş planı, sərbəst tədqiqatın aparılması proqramı, göstəricilərin komputer məlumat bazası və internet resusları (əyani vəsaitlər). Səmərəli enerji təsərrüfatı, günəş batareyalarının istifadə imkanları, yağış sularının yığımı, ağıllı ev və ekoev, suyun istifadəsi, tullantıların utilizə edilməsi və təkrar istifadəsi, fitodizayn və yaşıllaşdırma, alqı və istifadə, düzgün qidalanma.

3.8. Məktəb rəhbərləri daxil olmaqla seçilmiş məktəb müəllimləri üçün maarifləndirici təlimlərin keçirilməsi.

3.9. Proqramı hazırlayan xüsusi ekspert qrupları tərəfindən ümumtəhsil məktəblərində nümunəvi açıq dərslər keçiriləcək.

3.10. Facebook səhifəsinn açılması və bütün seçilmiş məktəblərin fəal şagidlərindən ibarət pilot qrupların yaradılması. Müsabiqənin birgə keçirilməsi üçün məktəblərdə aktiv ekoqruplar təşkil olunur. Facebook səhifəsi acılır və orada məktəbin nailiyyətləri qeyd olunur. Məktəblərdə ekoloji şura təşkil olunur. Şuraya müəllimlər, şagirdlər və valideynlər daxıldir. Şura ayda 1 dəfə, pilot il ərzində 12 dəfə keçirilir.

3.11. Bütün ümumtəhsil məktəblərində vahid tədbir günlərinin və tematik aylıqların elan edilməsi, praktiki tədbirlərin keçirilməsi (uşaq qrupları ilə müzakirələr, "ideyalar sərgisi"). Aktiv uşaq qrupları və məktəbin ekoloji şurasi tərəfindən vahid tematik günlərin keçirilməsi üçün lahiyənin əvvəlində 12 tematik gün üzrə fikir mübadiləsi keçirilir. 12 məktəbdən hər biri tədbirin bir günü üçün məsuliyyət daşıyır. Tədbirlər birgə keçirilir.

3.12. Məktəbdə infastrukturun yaradılması - suya qənaət, tullantıların idarə olunması, enerjiyə qənaət, yaşıl yeməkxana və ekoloji istehlak. Hər məktəb il ərzində məktəblilər tərəfindən ekoloji yönümlü və enerji effektli pilot məktəblərinin proqramın keyfiyyətli yerinə yetirilməsinə nəzarət üzrə tədqiqat, xüsusi hazırlanmış nəzarət jurnalları doldurulur. Hər rübün sonunda məktəblərin göstəriciləri üzrə reytinq keçirilir.

3.13. Məktəbyanı sahələrin fitodizayn və landşaft dizaynı üzrə proqramın hazırlanması və tətbiq olunması (uşaq müsabiqəsi). Məktəbin hər sinfinin xüsusi seçilmiş bitkilərlə (fitodizayn) yaşıllaşdırılması müsabiqəsi keçirilir. Uğurlu dizayn layihələri-(interyerin yaşıllaşdırılması və havanın ekoloji cəhətdən təmizlənməsi, tullantıların təkrar istifadəsi), uşaqların texnologiya dərslərində iştirakı və hazırlığının öyrənilməsi nəşr olunaraq bütün məktəblərə paylanılır.

3.14. "İlin yaşıl məktəbi" mövzusunda məktəb ekoloji sertifikatlaşdırılma müsabiqəsinin elan edilməsi. Məktəblərin ekoloji pasportlaşdırılması tərtib olunacaq. Qiymətləndirmə sisteminin hazırlanması və sertifikatların yerinə yetirilməsi qaydaları elan ediləcək.

## Məktəblilərin dram, təsviri və dekorativ-tətbiqi sənət respublika müsabiqəsinin Əsasnaməsi

### 1. Ümumi müddəalar

Məktəblilərin dram və təsviri incəsənət respublika müsabiqəsi (bundan sonra müsabiqə) Azərbaycan və dünya xalqlarının şifahi xalq ədəbiyyatının, klassik və müasir ədəbiyyatının məktəblilər arasında təbliği, həmçinin milli və dünya inciləri olan ədəbiyyat nümunələrini, bədii personajları təsviri və dekorativ-tətbiqi sənət nümunələrində yaşatmaq, məktəblilərin maraq və bacarıqlarının, intellektual səviyyəsi və yaradıcı qabiliyyətlərinin aşkarlanması, onların qlobal dayanıqlı inkişaf məqsədləri və müxtəlif məktəbdənkar istiqamətlər üzrə aktiv yaradıcılıq fəaliyyətinə cəlb olunması ilə fərdi potensiallarının sistemli inkişafı, ümumtəhsil məktəblilərinin müvafiq sahələr üzrə sinifdənxaric və məktəbdənkənar fəaliyyətlərinin qiymətləndirilməsi məqsədilə keçirilir.

Müsabiqədə bütün ümumtəhsil müəssisələrinin iştirakı nəzərdə tutumuşdur. Hər bir məktəb eyni zamanda dram, təsviri və dekorativ tətbiqi sənət istiqaməti üzrə və ya bunlardan birini seçərək iştirak edə bilər. Təhsil müəssisələri hər iki istiqamət üzrə müsabiqəyə qoşulacağı halda, eyni mövzunu və ya mövzuları məsələn, məktəb dram istiqaməti üzrə N. Gəncəvinin “Sirlər xəzinəsi”ndən bir parça səhnələşdiribsə, təsviri və dekorativ tətbiqi sənət istiqaməti üzrə eyni əsərə müraciət edərək hər hansı bir rəsm əsərini və ya dekorativ-tətbiqi sənət nümunəsini seçməlidir.

Hər iki istiqamət üzrə qaliblərin mükafatlandırma mərasimi qalib işlərin sərgisi və teatr festivalı formatında keçiriləcəkdir.

### 2. Müsabiqənin təşkili və keçirilməsi

- Müsabiqənin təşkilatçısı Təhsil və Mədəniyyət nazirlikləridir. Müsabiqənin keçirilməsi 2018/2019 tədris ili üçün nəzərdə tutulmuşdur.
- Müsabiqənin ümumilikdə keçirilməsi və yekun tədbirin təşkili Təhsil Nazirliyinin Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi tərəfindən həyata keçiriləcəkdir (ünvan: Böyük Qala küç., 41 əlaqə nömrələri: 569-49-47)

### 3. Müsabiqənin mövzuları

- Azərbaycan və dünya xalqlarının nağıllarına illüstrasiya (səhnələşdirilmiş 4-5 dəqiqəlik tamaşa);
- Azərbaycan və dünya klassik ədəbiyyatının seçilmiş nümunələrinin əsas qəhrəman və obrazlarının təsviri (səhnələşdirilmiş teatr tamaşalarından 4-5 dəqiqəlik hissə);

- Müasir ədəbiyyat (Azərbaycan və ya müasir dünya ədəbiyyatı) nümunəsindən 4-5 dəqiqəlik hissə) nümunəsinin əsas qəhrəman və obrazlarının təsviri.
- Qeyd: Hər məktəb müsabiqədə göstərilən mövzulardan yalnız biri üzrə iştirak edə bilər.

## 4. Müsabiqənin şərtləri

### Dram üzrə şərtlər

- təqdimatda tamaşaya uygun səhnə tərtibatı, əsərdəki dövrlə səsləşən geyimlər, istifadə olunan aksesuarlar və s. nəzərə alınmalıdır;
- tamaşalar əsərdən parça və kompozisiya şəklində təqdim olunmalıdır;
- kollektivlər və ya tək-tək ifaçılar bədii qiraət nümunəsi ilə də çıxış edə bilərlər;
- müsabiqədə ümumtəhsil məktəblərinin I-XI sinif şagirdləri iştirak edə bilərlər;
- iştirakçı dram kollektivləri müraciət etdikləri əsərin mahiyyətini, ideyasını əsas göstərməlidir;
- aktyor sənətinin əsasını təşkil edən: hadisələrə münasibət, aydın intonasiya və tələffüz, nizamların düzgün qurulması;
- müsabiqəyə təqdim olunan dram əsərlərindən parça, dialoq və kompozisiya 4-5 dəqiqədən artıq olmamalıdır;
- çıxış zamanı bütün parça, dialoq, kompozisiya canlı ifa olunmalıdır;
- mövzuya uyğun leytmotiv musiqilər yaddaş kartına yazılmalıdır;
- dram kollektivlərinin çıxışları münsiflər heyəti tərəfindən qiymətləndiriləcək;
- Yekun tədbirdə qalib dram kollektivləri çıxış edəcəklər.

### Təsviri və dekorativ tətbiqi sənət üzrə şərtlər

- işlər təqdim olunmuş məzmunu tam əks etdirməli;
- işlər məktəb tərəfindən təqdim olunmuş mövzu ilə uyğun olmalıdır (seçilmiş dram əsərinin mövzusunu əks etdirən mövzuda işlənməli);
- bütün işlər vatman kağız və ya bərk kartonda olmalı, paspartuya salınmalı, rəsmlərin arxasına asılqan və ya ilgək (petlə) bərkidilməli; (işin perimetrinə uyğun dekorativ çərçivələrin hazırlanmasına da icazə verilir); rəsmin formatı: eni 40 sm, uzunluğu 60 sm
- rəsmin arxa tərəfində aşağıdan sağda 9x12 ölçüdə kağız üzərində aşağıdakı formatda yazılmış məlumatlar olmalıdır: işin adı, yerinə yetirilmə texnikası, müəllifin adı, soyadı, doğum tarixi, rayon (şəhər), məktəb, sinif, ünvan göstərilməlidir.
- 

## 5. Müsabiqənin keçirilmə mərhələləri

Müsabiqə 5 mərhələdə keçirilir:

- I mərhələ: dekabr 2018-ci il tarixində ümumtəhsil müəssisələrinin müsabiqə ilə bağlı məlumatlandırılması;
- II mərhələ: yanvar – fevral 2019-cu il tarixində məktəbdaxili seçim;
- III mərhələ: fevral – mart 2019-cu il tarixində şəhər (rayon) mərhələsi;
- İV mərhələ: 15-25 mart 2019-cu il tarixində zona mərhələləri aşağıdakı rayon və şəhərlər üzrə keçiriləcək;

-Bakı-Abşeron zonası üzrə Bakı şəhərində (Bakı və Sumqayıt şəhəri, Abşeron və Xızı rayonları, Qubadlı rayonları);

- Quba-Xaçmaz zonası üzrə Quba şəhərində ( Quba, Qusar, Xaçmaz, Şabran , Siyəzən rayonları);
- Lənkəran-Astara zonası üzrə Lənkəran şəhərində (Lənkəran, Astara, Masallı, Cəlilabad, Yardımlı, Lerik, Cəbrayıl rayonları);
- Dağlıq Şirvan zonası üzrə Şamaxı şəhərində - (Şamaxı, İsmayıllı, Ağsu və Qobustan rayonları)
- Aran zonası üzrə Göyçay şəhərində (Mingəçevir şəhəri, Göyçay, Şirvan, Hacıqabul, Sabirabad, Saatlı, Salyan, Neftçala, İmişli, Füzuli, Ucar, Zərdab, Ağdaş, Kürdəmir, Ağcəbədi, Beyləqan, Yevlax, Bərdə, Ağdam, Tərtər, Laçın və Biləsuvar rayonları)
- Gəncə-Qazax zonasi üzrə Gəncə şəhərində -( Gəncə şəhəri, Tovuz, Qazax, Göygöl, Şəmkir, Naftalan, Samux, Daşkəsən, Gədəbəy, Ağstafa, Kəlbəcər, Xocalı, Xocavənd və Goranboy rayonları);
- Şəki-Zaqatala zonası üzrə Şəki şəhərində - (Şəki, Qax, Balakən, Qəbələ, Zaqatala və Oğuz rayonları).

***Qeyd:*** Zona mərhələsində seçilmiş ən yaxşı məktəblərin əl işlərinin fotosunu və şəxsi məlumatları (ad, soyad, təvəllüd, yaşadığı ünvan, oxuduğu məktəb sinif və əlaqə nömrəsi) və əsərin adı, ölçüsü, texnikası barədə məlumatlar Təhsil Nazirliyi Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi və “Xətai” Sənət Mərkəzinin aşağıda göstərilən ünvanlarına elektron qaydada göndərilməlidir:

Facebook: Təhsil Nazirliyi Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi (http://www.facebook.Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi) (012 569 49 47)

E-mail: rugim@mk.edu.az

Mərkəzin ünvanı: Böyük Qala küç., 41; əlaqə nömrəsi: (012) 569 49 47.

Bakı Xətai Sənət Mərkəzi (http://www.facebook.com/xsm.art.az/)

WhatsApp: 00994 51 310 74 01; E-mail: info@xsm.az

- V mərhələ: 10 aprel – 10 may 2019 – cu il tarixində Bakı şəhərində respublika mərhələsi və qaliblərin yekun tədbirdə iştirakı.
- Zona mərhələsi üzrə müsabiqəyə təqdim edilən təsviri və dekorativ- tətbiqi sənət nominasiyası üzrə işlər və dram nominasiyası üzrə videoçarxlar elektron formada - E-mail ünvanına göndərilməlidir.
- WhatsApp nömrə və digər dəyişikliklər olarsa müsabiqənin seçim mərhələsində iştirakçılara məktub vasitəsilə məlumat veriləcək.
- Müsabiqəyə təqdim edilən qalib işlər İşçi qrupu razılığı ilə təsdiq edilmiş müvafiq nazirliklərin qurumlarının mütəxəssisləri tərəfindən seçiləcək.

## 6. Qiymətləndirmə şərtləri

**Dram nominasiyası üzrə:**

- aktyor oyunu və obrazlı ifa;
- səhnə danışığına riayət;
- səhnə tərtibatı;
- musiqi tərtibatı;
- geyim;
- musiqi ifası və rəqs olacağı halda əlavə xal veriləcəkdir.

**Təsviri incəsənət və dekorativ tətbiqi sənət nominasiyası üzrə:**

mövzuya uyğunluğu;

- təkrarçılığın olmaması;
- yaradıcı iş, orijinallıq, keyfiyyət;
- aktuallığı, kompozisiyanın tamlığı;
- təsvirin dolğunluğu, işin təqdimatının orijinallığı;
- iştirakçının təmsil olunduğu məktəbin seçdiyi mövzu ilə eyni olması (mövzu ümumilikdə təqdim edilən əsər barədə ola bilər);
- müsabiqəyə təqdim olunmuş işin məhz məktəblinin özü tərəfindən işlənməsi (məktəblinin işinə müəllimlərin, peşəkar və ya həvəskar rəssamların, valdeyinlərin və başqa kənar şəxslərin müdaxiləsi yolverilməzdir).

Müəlliflərin təqdim etdiyi işlər peşəkar münsiflər heyəti tərəfindən 5 ballıq sistemlə qiymətləndiriləcəkdir.

**Respublika müsabiqəsində iştrak edən məktəblərin yerlərini müəyyənlişdirmək üçün qiymətləndirmə**

**CƏDVƏLİ**

| **s/s** | **Qazanılan yerlər** | **Xallar** |
|---|---|---|
| 1. | Final mərhələsində I yer | 100 |
| 2. | Final mərhələsində II yer | 90 |
| 3. | Final mərhələsində III yer | 80 |
| 4. | Final mərhələsində iştiraka görə (3 istiqamət üzrə) | 70 |
| 5. | Final mərhələsində iştiraka görə (2 istiqamət üzrə ) | 60 |
| 6. | Final mərhələsində iştiraka görə (1 istiqamət üzrə ) | 50 |
| 7. | Zona mərhələsində I yer | 45 |
| 8. | Zona mərhələsində II yer | 40 |
| 9. | Zona mərhələsində III yer | 35 |
| 10. | Zona mərhələsində iştiraka görə (3 istiqamət üzrə) | 30 |
| 11. | Zona mərhələsində iştiraka görə (2 istiqamət üzrə ) | 25 |
| 12. | Zona mərhələsində iştiraka görə (1 istiqamət üzrə ) | 20 |
| 13. | Rayondaxili mərhələdə I yer | 15 |
| 14. | Rayondaxili mərhələdə II yer | 10 |
| 15. | Rayondaxili mərhələdə III yer | 5 |
| 16. | Rayondaxili mərhələdə iştiraka görə | 3 |

**Qeyd: Xalların yerlərə görə hesablanması bütün istiqamətlər üzrə şamil edilir.**

**Əlavə 1**

**Məktəblilərin Respublika Yaradıcılıq Festivalının**

**işçi qrupu**

| | | |
|---|---|---|
| 1. | **Vasif Məmmədov** | Azərbaycan Respublikası Təhsil Nazirliyi, Məktəbdənkənar fəaliyyətin təşkili şöbəsinin müdiri |
| 2. | **İsmayıl Hüseynov** | Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, İncəsənət şöbəsinin müdiri |
| 3. | **Umayra Tağıyeva** | Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, ekoloji təbliğat sektorunun müdiri |

Əlavə 2

**Müsabiqədə iştirak üçün ərizə forması**

## Ərizə

**İştirak etmək üçün aşağıdakı formanı doldurun.**
**Əsas məlumat:**

| | |
|---|---|
| **Şəhər:** | |
| **Təhsil müəssisənin adı:** | |
| **Direktorun adı, soyadı:** | |
| **Əlaqə telefonu:** | |
| **Əlaqə ünvanı:** | |
| **İnternet səhifə:** | |
| **İştirak etmək üçün istiqamətin adı və sayı:** | |
| **Qrup rəhbərinin adı:** | |
| **Telefon:** | |
| **E-mail:** | |
| **İştirakçı sayı:** | |
| **Tarix:** | |
| **İmza:** | |

# İŞTİRAKÇI SİYAHISI

| № | Soyadı və adı | Doğum tarixi | Təmsil etdiyi müəssisənin adı | Təhsil aldığı məktəb | Sinif |
|---|---|---|---|---|---|
| 1. | | | | | |
| 2. | | | | | |
| 3. | | | | | |
| 4. | | | | | |
| 5. | | | | | |
| 6. | | | | | |
| 7. | | | | | |
| 8. | | | | | |
| 9. | | | | | |
| 10. | | | | | |
| 11. | | | | | |
| 12. | | | | | |
| 13. | | | | | |
| 14. | | | | | |
| 15. | | | | | |
| 16. | | | | | |
| 17. | | | | | |
| 18. | | | | | |
| 19. | | | | | |
| 20. | | | | | |